Azərbaycan Arxeologiyası Volume 25 №2 2023, 85-97
Khazar University Press DOI: 10.5782/2218-0346.2023.25.2.85

# Şamaxıda sənətkarlıq: ənənə və müasirlik

**Nailə Ciddi**
AMEA Arxeologiya və Antropologiya İnstitutu

**Açar sözlər:** Şamaxı, sənətkarlıq, metalişləmə, ipəkçilik, xalçaçılıq

Tarixən Azərbaycan xalqının məişətində bir çox maddi və mənəvi mədəniyyət sahələri ilə yanaşı ənənəvi sənətkarlıq (toxuculuq, dulusçuluq, daşişləmə, ağacişləmə, dabbaqlıq və s.) da mühüm yer tutmuşdur. Ölkəmizin əlverişli coğrafi mövqeyi, ərazisinin təbii xammal ehtiyatları ilə zənginliyi, həmçinin beynəlxalq quru və su ticarət yollarının üzərində yerləşməsi faktı sənətkarlığın inkişafına geniş imkanlar açmışdır.

Araşdırmalar göstərir ki, sənətkarlıq əsasən şəhərlərdə, qismən də bəzi kənd və qəsəbələrdə inkişaf etmişdir. Bakı, Gəncə, Naxçıvan, Şəki, Şuşa, Şabran, Quba, Lənkəran, o cümlədən Şamaxı vaxtilə yalnız Azərbaycanın deyil, eləcə də, bütün Qafqazın ən iri sənətkarlıq mərkəzlərindən olmuşdur. Şamaxı şəhərinin özü ilə bərabər onun Lahıc, Basqal və Nücü kimi kəndləri (Müasir İsmayıllı rayonu ərazisindədir) də ayrı-ayrı sənət sahələrinin intişar tapdığı başlıca mərkəzlər kimi çıxış etmişdir. Onlardan biri də metalişləmə sənətkarlığı olmuşdur.

Azərbaycan ərazisində metalişləmənin inkişafı və yayılma arealı barədə arxeoloji qazıntılar zamanı çox sayda faktoloji materiallar aşkar edilmişdir. Məsələn, Mingəçevir qazıntıları zamanı V-VI əsrlərə aid mədəni təbəqədən, eləcə də Beyləqan arxeoloji abidələrindən dəmir gavahin və müxtəlif çeşidli silah-sursat qalıqları tapılmışdır. Belə tapıntılara Qoşqar və Ağstafaçay yataqlarında, Gədəbəydə, Şəmkirdə, Gəncədə, Göygöldə, eləcə də Şamaxı rayonu ərazisində rast gəlinmişdir. Bunlar da öz növbəsində tarixin müxtəlif inkişaf pillələrində əmək alətlərinin təkmilləşmə dərəcəsini ardıcıllıqla izləməyə imkan verir (15, s.10; 9, s.41; , 3, s.14; 20, s.52-54).

Bundan əlavə, araşdırmalar zamanı Qafqazda müəyyən edilən beş əsas metal emalı mərkəzindən ikisinin Azərbaycanda qeydə alınması faktı da ölkəmizin ərazisində metalişləmə sənətkarlığının daha intensiv inkişafından xəbər verir (1, s.39).

Ayrı-ayrı dövrlərdə bu sənət sahəsi daxilində baş vermiş ixtisaslaşmanın yekunu kimi, onun dəmirçilik, misgərlik, zərgərlik və s. sahələri ayrılaraq müstəqil şəkildə fəaliyyət göstərmişdir. Etnoqrafik araşdırmalardan görünür ki, insanların gündəlik məişəti və təsərrüfat fəaliyyəti ilə sıx şəkildə

bağlı olan dəmirçilik sənəti zaman-zaman həm şəhər, həm də kəndlərdə inkişaf edərək daha geniş yayılmışdır. Bu cəhət ölkəmizin ərazisində günümüzə qədər gəlib çatmış toponimlər – yer-yurd, küçə və məhəllə adları da təsdiqlənir. Məsələn, Qobustan, Qazax, Qubadlı, Tərtər, Şərur və Şamaxı rayonlarında “Dəmirçi”, Kəlbəcərdə “Dəmirçidam”, İsmayıllıda “Əhən” (ahən - dəmir), Masallıda “Dəmirli” adlı kəndlər, Gəncə və Şuşa şəhərlərində “Dəmirçilər”, Basqalda isə “Dəmirçibazar” adlı məhəllələr vardır. Vaxtilə Bakı şəhərində də “Dəmirçilər” və “Zərgərpalan” məhəllələri mövcud olmuşdur. Bundan əlavə, Dərbənd yaxınlığında yerləşən bir kəndin adamlarına “Zəryəgaran” və ya “Zirehgəran”, yəni “zireh ustaları” deyilmişdir. Çünki burada əsas etibarı ilə metalişləmənin bir çox sahələri üzrə ixtisaslaşmış ustalar fəaliyyət göstərmiş və onlar əsasən, müharibələrdə kəskin ehtiyac duyulan dəbilqə, qılınc, nizə, yay, ox, xəncər və s. istehsal etmişlər.

Bütün orta əsrlər boyu inkişaf edən və təkmilləşən dəmirçilik sənəti XIX əsrdə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bəzi məlumatlara görə, əsrin ortalarında Azərbaycanda 400-dən artıq dəmirçi fəaliyyət göstərmişdir. Əsrin 30-cu illərində bu sənətin əsas mərkəzlərindən biri olan Şamaxıda isə 26 nəfər yalnız silahsaz usta qeydə alınmışdır ki, onlardan da 5 nəfəri təbərzin, 9 nəfəri xəncər, 12 nəfəri isə qundaq ustası olmuşdur (25, s.121; 23, 25-26). 1849-cu ildə isə burada silah ustalarının sayı 66 nəfər təşkil etmişdir ki, bu da Şamaxı şəhərində dəmirçilik sənətinin sürətli inkişafından xəbər verir.

Şamaxı şəhəri ilə yanaşı, onun Dəmirçi və Əhən kəndlərində də 10-12 dəmirçi emalatxanası fəaliyyət göstərmişdir ki, həmin emalatxanalarda da silah-sursat və təsərrüfat-məişət alətləri (xəncər, qılınc, bıçaq, oraq, kotan, balta və s.) hazırlanmışdır. Məlumatçıların sözlərinə görə, xüsusilə Dəmirçi kəndində dəmirçilik sənəti ilə bu və ya digər şəkildə bağlı olmayan ailə tapmaq çətin idi. Kənd tarixən köç yollarının üstündə yerləşdiyindən, yaylaqdan qışlağa və əksinə hərəkət edən maldarlar təsərrüfat və məişətdə lazım olan bütün ev-mətbəx əşyalarını (balta, qayçı, bıçaq, çəngəl, qiyməkeş və s.), əkin-biçin alətlərini (dəhrə, daraq, bel, balta və s.) və toxuculuqda istifadə edilən avadanlıqları (həvə, kirkid və s.) burada sifariş edir, atlarını və qatırlarını buradan nallatdırırdılar.

Məlumatlara görə, XX əsrin əvvəllərində Dəmirçi kəndində müxtəlif sahələr üzrə ixtisaslaşmış ustaların (Usta Məşədi Qənbər, Qəzənfər usta, Sərxan usta və b.) hər birinin özünün damğası – emblemi olmuşdur. Müştərilər də həmin emblemlə məmulatın kim tərəfindən hazırlandığını bilir və öz

seçimlərini edirdilər. Bəzi ustalar məmulatın üzərində adlarını da yazırdılar. Deyilənə görə, dəmirçi Alsəhab təkcə Şamaxıda deyil, ətraf bölgələrdə məşhur olmuşdur. Bu kəndin ustaları Lahıc ustaları ilə sıx əlaqədə çalışırdılar.

Metalişləmənin digər mühüm sahəsi olan misgərlik daha çox mətbəx-məişət qablarının istehsalı ilə bağlı olmuşdur. Xüsusilə orta əsrlərdə ev məişətinin artan tələbləri ilə əlaqədar olaraq misgərlik ənənələri daha da inkişaf etmiş və əsasən sənət və ticarət mərkəzlərinə çevrilmiş şəhərlərdə cəmlənmişdi. Təbriz, Ərdəbil, Marağa, Salmas, Bərdə, Beyləqan, Dərbənd, Şəki, Gəncə, Bakı, Naxçıvan, Quba, Şuşa, Naxçıvan, Lənkəran və Şamaxı mis məmulatı istehsalının başlıca mərkəzlərinə çevrilmişdilər. Lakin etiraf etmək lazımdır ki, istər orta əsrlərdə və XIX əsrdə, istərsə də sonrakı dövrlərdə misgərliyin başlıca mərkəzi Şamaxı qəzasının Lahıc qəsəbəsi olmuşdur. Məlumatlara görə, Azərbaycanın və Dağıstanın əksər şəhər və kəndlərində fəaliyyət göstərmiş misgərlərin böyük əksəriyyəti əslən lahıclılar olmuşlar (17, s.98). XIX əsrin 30-cu illərində qəsəbədə 52 misgər dükanı fəaliyyət göstərmişdir ki, həmin dükanlarda da ildə 2340 pud mis xammalı işlənirdi (25, s.124). XIX əsrin ortalarında qəsəbənin 1000 nəfərədək sakini məhz misgərlik və onunla bağlı sənət sahələri ilə (kömürbasma, çarvadarlıq və s.) məşğul olmuşlar (16, s.90). 1884-cü ildə buradakı 100 misgər emalatxanasında 370-dən artıq sənətkarın çalışdığı xəbər verilir (27, s. 6). Şamaxı şəhərinin özündə isə bu dövrdə 6 misgərin fəaliyyət göstərdiyi xəbər verilir (25, s. 120).

Beləliklə, XIX əsr boyu misgərlik sənətinin Şamaxı əhalisinin məişətində mühüm yer tutduğunu görürük. Lakin əsrin sonlarına doğru bütün ölkədə müşahidə olunan iqtisadi böhran fonunda, Lahıcda da mis məmulatı istehsalı azalmağa başlamışdır ki, nəticədə 1894-ci il üçün 50 misgər emalatxanasında cəmi 140 nəfər misgər fəaliyyət göstərmişdir (27, s.10).

XX əsrin əvvəlləri üçün isə qəsəbədə misgər emalataxanalarını sayı 22-ə qədər azalmışdır ki, onlardan da 4-ü iri, 8-i orta, 10-u isə xırda emalatxanalar olmuşdur (17, s.101). Çünki yerli misgərxanalarda hazırlanan mis məmulatı getdikcə artan sənaye məhsullarının rəqabətinə tab gətirməkdə çətinlik çəkirdi. Bu məsələdə sənaye üsulu ilə istehsal olunan çini və kaşı qabların ticarətinin genişlənməsi daha təsirli rol oynayırdı.

Metalişləmənin əsas sahələrindən biri də zərgərlik olmuşdur. Arxeoloji qazıntılar zamanı ölkəmizin və bölgənin müxtəlif yerlərində aşkarlanmış mis, bürünc və tunc məmulatı nümunələrinin bəzək tərtibatı göstərir ki, qədim sənətkarlar bilavasitə nəcib metallardan zinət istehsalına başlamazdan xeyli əvvəl bədii metal sənətini yüksək inkişaf səviyyəsinə çatdıra bilmişdilər.

Sonrakı mərhələlərdə, xüsusilə qızıl və gümüşün istehsal xüsusiyyətlərinin mənimsənilməsi ilə əlaqədar olaraq ənənəvi metalişləmə sənətində zinət istehsalı daxilində ixtisaslaşma baş vermiş və nəticədə onun yeni bir müstəqil sahəsi – zərgərlik təşəkkül tapmışdır (13, s.196).

Görkəmli arxeoloq Hüseyn Ciddinin apardığı tədqiqatlar göstərir ki, orta əsr Şamaxı zərgərlərinin hazırladıqları bəzək nümunələri əsasən, bürünc bilərziklərdən, gümüş sırğa və müxtəlif növ asma bəzəklərdən ibarət olmuşdur. Bürünc bilərziklər əsasən iki formada - oval və boruvari hazırlanmış və onlar burada hələ ilk orta əsrlərdən məlum olmuşdur. Sırğalar isə bir-birini ardıcıl şəkildə izləyən müxtəlif elementlərin kompozisiyasından ibarət idi. Sırğaların əsas hissəsi naxış əmələ gətirən burulmuş və ya qaynaq edilmiş simlərdən hazırlanmaqla, kənarlarından geometrik ornamentlərlə bəzədilmiş üç dairəvi lövhəcik asılmışdır (20, s.53).

1832-ci ildə Şamaxıda 40 nəfərdən çox zərgərin çalışdığı xəbər verilir. Lakin XIX əsrin 2-ci yarısından etibarən başlanan iqtisadi böhran, xüsusilə də sənaye məhsullarının geniş yayılması metalişləmənin bu sahəsindən də yan keçməmişdi. Nəticədə Şamaxıda zərgərlərin sayı tədricən azalaraq, əsrin sonlarında 25 nəfər təşkil etmişdir (21, s.60-64).

Orta əsrlərdə, o cümlədən XIX əsrdə Azərbaycanda ənənəvi sənətkarlığın aparıcı sahələrindən biri də toxuculuq idi və bütün Şirvan, o cümlədən Şamaxı bu sənətin əsas mərkəzlərindən biri sayılırdı. Xüsusilə ipək məmulatı istehsalı Şamaxının və onun ətraf kəndlərinin iqtisadi həyatının əsasını təşkil edirdi. Şamaxı şəhərinin əlverişli coğrafi mövqeyi onun digər şəhər və yaşayış məntəqələri ilə intensiv ticarət əlaqələri saxlamasına imkan verirdi. Buradan quru yollar vasitəsilə ipək parçalar, kəlağayılar və s. Bakıya gətirilir, oradan isə Həştərxana və digər liman şəhərlərinə göndərilirdi. Təsadüfi deyil ki, Azərbaycanı gəzmiş Şərq və Avropa səyyahları, həmçinin tacir, elçi və alimləri öz əsərlərində Şamaxının rifahından və zənginliyindən, əla keyfiyyətli ipək parçalarından, zərif baş örtüklərindən geniş bəhs etmişlər. XV əsrin II yarısında Azərbaycanda Venesiyanın rəsmi elçisi Katerino Zeno, Venesiyanın Ağqoyunlu sarayındakı elçisi Ambrocco Kontarini və başqaları Şamaxı haqqında maraqlı məlumatlar vermiş və "buranın (Şamaxının) "talaman" adlanan əla ipək parçalarından bəhs etmişlər. Alman səyyahı İ.Şiltberger qeyd edirdi ki: *"Şirvandan başqa ölkələrə böyük miqdarda ipək ixrac olunur... Xam ipəkdən müxtəlif parçalar hazırlanır. Hətta buradan Venesiyaya ipək göndərilir və ondan yüksək keyfiyyətli məxmər toxunur"* (26, s.40-41).

Şirvanlı tacirlər elçi sifəti ilə tez-tez Moskvada çar sarayının qonağı olur, bu ölkəyə digər mallarla yanaşı, külli miqdarda xam ipək və ipək parçalar aparırdılar. Rus tacirləri də xam ipəyi əsasən Şirvandan alırdılar. Moskva ilə Şirvan arasında bağlanmış ticarət müqaviləsindən sonra Şamaxı ipəyinə tələbat daha da artmışdı. Bunun əsas səbəblərindən biri də Azərbaycanın digər bölgələrindən Şamaxı bazarına çeşidli ipək məmulatlarının gətirilməsi və satılması idi (8, s.64-65).

Şamaxıda keçi yunundan toxunan cecim, tətinlik, xas qırmızı, aloyşa, alaca və s. ipək parçaları daha geniş yayılmışdı. Bunların istehsalı əsasən ev peşəsi səciyyəsi daşıdığından, nadir hallarda satış məqsədilə toxunurdu. Lakin natural təsərrüfatın dağılması və əmtəə-pul münasibətlərinin inkişafı bazar istehsalına güclü təkan verir və nəticədə karxana şərbaflığı tədricən ipəkçiliyin aparıcı sahəsinə çevrilməyə başlayırdı.

Məlum olduğu kimi, keçmiş məişətdə ipək cecimə tələbat böyük olmuşdur. Şəhər və kənd evlərində divar boyunca döşəmə üzərinə düzülmüş dör-döşək, nimdər, mütəkkə, balınc, puştu, yataq döşəyi habelə yorğan üzü, taxça vəpərdə, yük örtüyü, buxarı qabağı, gərdək, canamaz, süfrə və s. hazırlanmasında əsas məmulat cecim tipli parçalar sayılırdı. Cecim toxunuşlu ipək məmulatından bir sıra geyim növləri (köynək, şalvar, çuxa, arxalıq, qurşaq, dolaq və s.), heybə, yəhər qaşı, ladı çörək torbası, duz torbası, qaşıqlıq və s. kimi zəruri məişət ləvazimatları da hazırlanırdı. Xalis ipəkdən toxunmuş cecim keçmiş məişətdə cah-calal və qiymətli ev əşyası hesab edilirdi.

XVIII əsrin 90-cı illərində Şamaxıda darayı, tafta və qanovuz toxuyan 1500 toxucu dəzgahı fəaliyyət göstərmişdir (12, s.64). Burada ipək o qədər çox olmuşdur ki, onun artıq hissəsinin ölkənin müxtəlif şəhərlərində fəaliyyət göstərən fabriklər tərəfindən alınmasına rəğmən, hər il 2000 puddan çoxu Həştərxan limanı vasitəsilə Rusiyaya ixrac olunurdu.

XIX əsrin 30-cu illərində Köhnə Şamaxıda ipək parça toxuyan 650, Əlvənd, Zərdab, Ağsu və Basqal kimi Şirvan kəndlərində isə 50 ipəktoxuma dəzgahı fəaliyyət göstərmişdir. Bu cür dəzgahlarda əsasən darayı, tafta, mov, ipək örtük, örpək, kəlağayı, zolaqlı çadra, cecim və digər ipək parçalar toxunurdu. Şamaxının mov və darayısı daha keyfiyyətli sayılırdı. Mənbənin yazdığına görə, Şamaxı karxanalarının ipək məmulatı keçmişdə böyük şöhrət qazanmış və hətta İran parçalarından da keyfiyyətli hesab edilmişdir (25, s.109).

Əsrin 40-cı illərində isə Şamaxı şəhərində 220 şərbaf karxanasının fəaliyyət göstərdiyi bildirilir. Burada yay mövsümündə həm qadınlar, həm də

kişilər ipəkçilik və əkinçiliklə məşğul olur, qış vaxtı isə müxtəlif növ ipək növlü parçalar toxuyurdular (14, s.59-65; 22, s. 179).

Kəlağayı və çarşablar dəqiq ölçü-biçi ilə toxunurdu. Mənbənin yazdığına görə, 54 misqal xalis ipək telindən hər birinin uzunu 2,25 arşın, eni 1,75 arşın olan 34 ədəd kəlağayı hasilə gəlirdi. Şamaxı karxanalarında toxunan ipək parçalar, xüsusilə, darayı və tafta yerli bazarlarda satılmaqdan başqa, Moskva, Həştərxan, Tiflis, Bakı, Quba, Dərbənd, Şəki, Şuşa şəhərlərinə göndərilir, kəlağayı və çarşab isə bütün bunlardan əlavə, həm də Türkiyə və İrana ixrac olunurdu (25, s. 114-115).

Şamaxının bəzi kəndlərində, o cümlədən, Basqal və Mücü evlərinin çoxunda rəngli qanovuz parçalar toxunan ibtidai dəzgahlara rast gəlmək olurdu. Xüsusilə Basqalda ipək parça və kəlağayı toxuculuğu çox geniş yayılmışdı. Məşədi Həbibulla Hacı Abbas, Hacı Səməd, Hacı Seyid Məhəmməd Hacı Əkbər, Əliabbas Cəbrayıl oğlu və başqalarına məxsus olan karxanalarda böyük həcmdə tafta və qanovuz parçalar, baş yaylıqları, qanovuz parçalar və xüsusilə "Heratı" kəlağayısı istehsal edilirdi. Həmin karxanalarda yerli - Basqal ipəyindən istifadə olunur və hazır mallar Şamaxıya göndərilirdi (4, s. 211).

Basqalda yüksək keyfiyyətli ipək məmulatı təkcə yerli tələbatı ödəmir, xarici bazarlarda da yol tapır, Avropaya, Orta Asiyaya, Rusiyaya, Gürcüstana və İrəvana aparılırdı. Moskva bazarlarında "yaşıl Şamaxı movları"na və "müxtəlif rəngli Şamaxı ipəyinə" tez-tez təsadüf etmək olurdu (8, s. 79).

XIX əsrin sonlarında Basqal ustalarından Əliabbas Cəbrayıl oğlu, Məşədi Həbibulla Hacı Abbas oğlu, Hacı Bağır Mirzə oğlu, Hacı Əkbər Hacı Seyid oğlu və b. Paris, London, Sankt-Peterburq, Moskva, Tiflis və s. şəhərlərdə beynəlxalq sərgilərdə iştirak etmiş və bu sərgilərin yüksək mükafatlarına layiq görülmüşdülər (4, s. 211-212).

Azərbaycanda, o cümlədən Şamaxıda toxuculuq sənətinin geniş intişar tapmış sahələrindən biri də xalçaçılıq idi. Arxeoloji materiallar bu sənətin tarixinin çox qədimlərə aid olduğunu sübut edir. Məsələn, görkəmli arxeoloq O.Həbibullayevin Naxçıvanda Eneolit dövrünə aid olan çoxtəbəqəli Kültəpə abidəsindən apardığı tədqiqatlar zamanı birinci mədəni təbəqədən ip əyirmək üçün istifadə edilən sümük iy ucları və daşdan düzəldilmiş həvəngdəstələr tapılmışdır (5, s.80-81). Bundan əlavə, Mingəçevir yaşayış yerinin Eneolit mədəni təbəqəsindən tapılan bir neçə gil tağalaq, iki tərəfdən dəliyi olan iri daş çapacaqlar və s. artıq hələ zaman yerli əhalinin toxuculuq sənəti ilə, ehtimal ki, kobud yun parçaların toxunması ilə məşğul olduğunu sübut edir.

Şamaxıda və onun ətraf ərazilərində də sümükdən, gildən və şüşədən hazırlanmış və ilk orta əsrlər dönəmində toxuculuq sənətkarlığında istifadə olunan müxtəlif təyinatlı alətlər də aşkar edilmişdir (20, s.69).

Azərbaycanda xalça sənətinin tarixinin uzaq keçmişə aid olması yazılı mənbələrlə də təsdiqlənir. Bu haqda məlumatlara ərəb tarixçilərinin (Əbu Cəfər Məhəmməd Təbəri, Məsudi, Əl-Müqəddəsi, İbn-Havqəl, Əl-İstəxri və b.) əsərlərində, "Hüdud əl-aləm" (X əsr) və "Əcaib əd-dünya" (XIII əsr) kimi yazılı mənbələrdə də rast gəlinir. Ulu kitabımız "Kitabi-Dədə Qorqud" dastanının ayrı-ayrı boylarında *"min yerdə ipək xalçası döşənmişdi", "doxsan yerdə ala qalı, ipək döşənmişdi"* (11, s. 16, 28, 42, 69, 106) kimi ifadələr də deyilənləri təsdiq edir. Dahi Nizami Gəncəvinin əsərlərində toxuculuq məmulatından ipək, qumaş, kilim, xalı, palaz, atlaz, kətan, mitqal və s.-in adları çəkilir, darayıcılardan, əyiricilərdən, toxuculardan bəhs olunur.

Avropalılar isə Azərbaycan xalçaları ilə XV əsrdən etibarən tanış olmağa başlamışlar. Bu dövrdə Şirvandan və Arrandan Qərbi Avropa ölkələrinə çoxlu miqdarda xalça ixrac olunurdu (2, s. 113). Onlardan biri- "Şamaxı" adlı xalça günümüzə qədər Nyu-Yorkdakı Metropoliten İncəsənət Muzeyinin nadir eksponatları arasında görkəmli yer tutur.

Dövrümüzə qədər gəlib çatmış ən qədim Azərbaycan xalçası XIII-XIV əsrlərə aiddir. Quba-Şirvan qrupuna məxsus "Şirvan" tipli həndəsi naxışlı bu xovlu xalça hazırda İstanbulun Türk İslam Əsərləri Muzeyində saxlanılır (2, s. 113). Berlin incəsənət muzeyinin Şərq bölməsində nümayiş etdirilən "Şirvan" adlı digər xalça da Azərbaycan incəsənətinin nadir sənət nümunələrindəndir. Türk İslam Əsərləri Muzeyində saxlanılan xalça üç hissədən ibarət enli yelən ilə tamamlanır. Haşiyələr içərisində həndəsi formalı zəngin naxışlar vurulmuşdur. Bu naxışlara diqqətlə baxdıqda, onların gül-çiçək rəsmlərinin stilizə edilmiş formalarından əmələ gəldiyini görərik (7, s.32).

Orta əsrlər dönəmində xalça istehsalı və ticarəti beynəlxalq münasibətlərdə və dövlətlərarası iqtisadi əlaqələrdə mühüm rol oynamışdır. Təsadüfi deyil ki, XV əsrin II yarısında güclənməkdə olan Moskva dövləti xam ipək, ipək parça və xalça ilə zəngin olan Şirvanla qarşılıqlı ticarət əlaqələri və diplomatik əlaqələr yaratmağa daha çox həvəs göstərirdi (2, s. 140). Bu haqda Azərbaycanda olmuş Avropa səyyahlarının - E.Çələbi, A.Cenkinson, A.Kontarini, İ.Şildberger, A.Oleari, Y.Streys və başqalarının əsərlərində maraqlı məlumatlar vardır. Bu baxımdan A.Cenginsonun qızıl-gümüş saplarla toxunmuş Şirvan xalçaları haqqında verdiyi məlumat xüsusilə maraqlıdır. O, 1562-ci ildə Şamaxıda Şirvan bəylərbəyi Abdulla xan Ustaclının yay düşərgəsində

olarkən, onun çadırında zəngin bəzəkli xalçalar döşəndiyini və onların üzərinə qızıl və gümüş tellərlə toxunmuş kvadrat formalı bir xalça salındığı haqda ətraflı məlumat verir (19, s. 203).

Əsasən, yun istehsalı və tədarükü ilə bağlı olan xalçaçılığın Şirvanda geniş yayılmasının əsas səbəbi ilk növbədə buranın təbii coğrafi mühiti və qoyunçuluq təsərrüfatının inkişafı üçün əlverişli şəraitin mövcudluğu ilə bağlıdır. Tam olmayan məlumata görə, XIX əsrin 30-40-cı illərində Azərbaycanda milyon yarım qoyun və keçi var idi. 1857-ci ildə isə təkcə Şamaxı quberniyasının beş qəzasında 1 334 937 davarın olması faktı da məlumdur. Azərbaycanda yetişdirilən yerli qoyun cinsləri və onlardan alınan yun məhz toxuculuq üçün ən münasib xammal mənbəyi idi (6, s. 18-19).

Şamaxı və onun ətraf əraziləri dəvəçilik təsərrüfatının əsas mərkəzlərindən biri idi. Təkcə onu demək kifayətdir ki, 1926-cı ildə Azərbaycanda mövcud olan 4500 baş dəvənin 4195 başı Şamaxı qəzasının 8 kəndinin payına düşürdü (6, s.49). Dəvə yununun toxuculuq sənətkarlığında geniş istifadə olunduğu isə hamıya məlumdur.

XIX əsrin 80-ci illərində müxtəlif çeşnili xalçaların Şirvanın hər bir kənd və köçəbə icma-sında toxunduğunu xəbər verən mənbədə bildirilir ki, nadir hallarda kənd evlərində xalça və digər toxuculuq məmulatı toxumaq üçün hana olmazdı. Mənbənin yazdığına görə, ən yaxşı xalçalar bölgənin Qarayazı, Zərdab, Mollakənd və Ərəbqədim kəndlərində toxunmuşdur (16, s.176).

Onu da qeyd edək ki, Cənubi Qafqazın bütün bölgələrində xalçaçılıqla yalnız müsəlman əhali məşğul olmuşdur. Məsələn, “Qafqaz təqvimi”nin 1900-cu ildə verdiyi məlumatda qeyd olunur ki, *“Qərbi Zaqafqaziyada və Gürcüstanda xalça istehsalı demək olar ki yoxdur. Şərqi və Cənubi Zaqafqaziyada isə bu sənət sahəsi ilə demək olar ki, hər yerdə məşğul olurlar...Bakı quberniyasının, Quba, Göyçay, Lənkəran və Şamaxı qəzalarında, Zaqatala dairəsində isə çox orijinal və qiymətli xalçalar toxunur ki, onlara başqa yerlərdə rast gəlinmir”* (24, s.62-67).

Şamaxının xalça və xalça məmulatının əsas üstünlüyü onların rəng parlaqlığı idi ki, bu da bölgənin toxuculuqda geniş istifadə olunan boyaq bitkiləri ilə zənginliyi ilə əlaqədar olmuşdur. Pirqulu, İsmayıllı, Talış, Cəngi, Xaltan, Alpoud meşələrində bitən müxtəlif ağac və kol bitkiləri, xalq arasında “toxmacar” adlanan tut bağları boyaqçılıq işinin geniş yayılmasına şərait yaradırdı. Bundan başqa, yunu boyamaq üçün əncir yarpağından, soğan qabığından, zəfərandan, nar qabığından və digər bitkilərdən alınan boyaq

maddələrindən də istifadə edirdilər. Xalçaların rəngləri şux və davamlı olurdu (2, s.139-140).

Şamaxının Məlhəm, Ərçiman, Çalov, Sor-sor, Qəşəd, Lahıc, Ərəbuşağı, Basqal, Dilman, Xatman, Nüydü, Cəyirli, Sulut, Zərgəran, Qaraqoyunlu, Osmanbəyli, Çarhan, Nabur, Kolanı, Poladlı, Yekəxana və s. kimi yaşayış məntəqələri əsas boyaqçılıq mərkəzləri idilər. Statistik məlumatlara görə, 1841-ci ildə Şamaxıda 68 boyaqçılıq müəssisəsi fəaliyyət göstərilmişdir. Bütövlükdə, XIX əsrin 60-cı illərində Azərbaycan ərazisində fəaliyyət göstərən boyaqçılıq müəssisələrinin təqribən ¾-ü, yəni (41 müəssisədən 31-i) Şamaxı şəhərinin və Şamaxı qəzasının payına düşürdü. Burada müvafiq olaraq 1248 və 872 rublluq boyaq maddəsi istehsal edilirdi ki, bu məhsulların da böyük hissəsi Şamaxıda və ətraf qəsəbələrdəki toxuculuq müəssisələri alırdı. Belə bir vəziyyət XIX əsrin 80-ci illərində də davam etmişdir. 90-cı illərdə isə vəziyyət bir qədər dəyişir. Bu illərdə boyaqçılıq müəssisələrinin və işçilərin sayında azalma (boyaq müəssisələri 23-dən 9-a, boyaqçıların sayı isə 59-dan 36-ya enmişdi) müşahidə olunmuşdur (28, s.127-134).

Şirvan xalçalarının əsas texniki xüsusiyyəti ölçülərinin kiçik olması idi. Belə ki, burada çox nadir hallarda 10-15 və ya 20 kv.m ölçüdə toxunmuş xalçalara rast gəlinirdi. Məşhur xalçaçı L.Kərimovun yazdığına görə, xalçalar kiçik və orta ölçüdə sıx, yumşaq və nazik toxunurdu ki, burada xalçanın hər kv.m-ə 160 mindən 300 minə qədər, bəzən 350 minə qədər ilmə düşürdü. Xalçalar zəngin həndəsi naxışlı, mürəkkəb kompozisiyalı, ahəngdar rəngli, texniki cəhətdən hündürlüyü 3 mm-dən 6 mm-ə qədər olan dolama və qullabı ilmələrdulə toxunur (10, s. 4).

Şirvan xalçalarının 25-ə qədər çeşnisi məlumdur. Medalyon və xırda naxış çeşnilərindən (Şirvan, Şamaxı, Qobustan, Salyan, Qəbələ, Ərciman, Mərəzə, Sorsor, Şilyan, və b.) əlavə, Şirvan qrupuna "Namazlıq" və "Bəndirumi" kimi orijinal kompozisiyalı xalça çeşniləri də daxildir. Şirvan xalçalarında həmçinin, buta motivli bəzək ünsürləri (gülabdan-buta, çiçəkli buta, bala buta, badamı buta və b.) üstünlük təşkil etmişdir (18, s. 279). Bundan əlavə, insan siluetlərini, mistik təsəvvürlərlə mücərrəd qrafik təsvirləri, İslam dini motivlərini özündə birləşdirən kompozisiyalara da rast gəlinirdi. "Ovçuluq", "Narlı" kimi məşhur süjetli xalçalarda əks olunmuş sakral təsəvvürlər isə bəşəri mahiyyət kəsb etmişdir. "Ərçiman", "Mərəzə", "Sor-Sor", "Şamaxı", "İsrafil", "Cəmcəmil", "Pirhəsənli", "Şilyan", "Salyan", "Nabur", "Kürdəmir" və s. xalçalarda "Əl-ələ" mərasim rəqsini ifa edən insan təsvirləri, çeşidli butalar, ilahi məziyyətləri bildirən nəbati motivlər,

svastika, qarmaqlı romblar, dördbucaqlar, göllər, kətəbələr, mifoloji quşlar, nəzərlik asmalar, islam dini ilə bağlı – qəndil, gülabdan, daraq, təsbeh, möhür təsvirləri və digər naxışlar nəzərə çarpır. Xalq inanışlarına görə, bu elementlərin hər biri sahibinə uğur gətirir, onu bəd ruhlardan, mənfi enerjidən və nəzərdən qoruyur.

Sənətkarlıq məhsulları Şamaxının ticarət əlaqələrində də mühüm rol oynamışdır. XIX əsrin birinci yarısında təkcə Köhnə Şamaxıda kifayət qədər kapitala sahib olan 120-dən çox tacir vardı. Orta və xırda ticarətlə məşğul olan insanlar da çox idi. Onlar daha çox Moskva, Həştərxan və Tiflislə ticarət əlaqələri saxlayırdılar. Əsas ticarət predmeti isə ipək və ipək məmulatı, marena (qızıl boya), mis və dəmir məmulatı, pambıq məmulatı və s. idi (25, s. 126-127). Bundan əlavə Şamaxı tacirləri, Ərdəbil, Rəşt, Ənzəli və İsfahan şəhərləri ilə də ticarət edirdi.

Əlamətdar haldır ki, bu gün Azərbaycanda, o cümlədən Şamaxıda xalça sənətinə böyük diqqət və qayğı mövcuddur. Belə ki, Heydər Əliyev Fondunun məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan xalçaçılıq sənəti beynəlxalq səviyyədə dəyərləndirilərək UNESKO-nun "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na daxil edilmişdir. Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Azərbaycan Respublikasının "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" 4 dekabr 2007-ci il tarixli "Qanun"u xalça sənətinin dirçəldilməsi istiqamətində mühüm hadisədir. Qanunda bir çox məsələlərlə yanaşı, vaxtilə ölkədən çıxarılan və hazırda xarici muzeylər nümayiş etdirilən nadir Azərbaycan xalçalarının ölkəyə qaytarılması istiqamətində səylərin artırılması, o cümlədən şəxsi kolleksiyalardakı nadir Azərbaycan xalçaları barədə kataloqun hazırlanması tədbirləri nəzərdə tutur.

Bundan əlavə, Lahıc qəsəbəsində misgərlik, Dəmirçi kəndində dəmirçilik, Basqalda isə ipəkçilik ənənələrinin (xüsusilə də kəlağayıçılıq) bərpa olunması və inkişaf etdirilməsi istiqamətində geniş tədbirlər planı həyata keçirilir. Bütün bunlar da öz növbəsində, tarixi yaddaşın bərpa edilməsi istiqamətində mühüm addım olmaqla yanaşı, Azərbaycanda etnoloji (etnoqrafik) turizmin və etnoloji muzeyşünaslıq işinin inkişafına da ciddi təkan verməkdədir.

**Ədəbiyyat**

1. Azərbaycan Etnoqrafiyası. III cilddə, I c. Bakı, Şərq-Qərb, 2007, 544 s.
2. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, Əbilov, Zeynalov və oğulları, 2006, 650 s.
3. Babayev İ., Əhmədov Q. Qəbələ (tarixi-arxeoloji oçerk). Bakı, Elm, 1981, 68 s.
4. Babayev T., Şahbazov T. Basqal (tarixi-etnoqrafik tədqiqat). Bakı., Elmin İnkişafı Fondu, 2017, 344 s.
5. Həbibullaev O. Kültəpədə arxeoloji qazıntıların ilk nəticələri //Azərbaycan Tarix Muzeyinin əsərləri, II c. 1957
6. Həvilov H. Martda mərək. Bakı, Azərnəşr, 1993, 122 s.
7. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı, İşıq, 1976, 190 s.
8. Əliyev F. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı, Azərb. Elmlər Akad. Nəşr., 1964, 122 s.
9. İbrahimov F. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı, Elm, 1988, 176 s
10. Kərimov L. Azərbaycan xalçası. I c. Bakı-Leninqrad, 1961, 30 s.
11. Kitabi-Dədə Qorqud. Bakı, Azərb. Dövlət Nəşriyyatı, 1962, 272 s.
12. Mustafayev A. Şirvanın maddi mədəniyyəti. Bakı, Elm, 1977, 158 s.
13. Mustafayev A. Azərbaycanda sənətkarlıq. Bakı, Nurlan, 2001, 440 s.
14. Mustafayev C. XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Azərbaycanda kənd sənətkarlığı tarixindən (toxuculuq və xalçaçılıq) //AMEA-nın Xəbərləri (Tarix, fəlsəfə, hüquq seriyası) 1992, № 3-4, s. 59-65.
15. Vahidov R. Mingəçevir III-VIII əsrlərdə (arxeoloji qazıntı materialları əsasında), Bakı, Az.SSR EA, 1961, 160 s.
16. Абелов Н.А. Экономический быт государственных крестъян Геокчайского и Шемахинского уездов Бакинской губернии //МИЭБГКЗК, т. VI, ч. II, Тифлис, 1886 г., с. 1-334
17. Ализаде А. Лагич (историко-этнографическое исследование. Баку, Чашыоглы, 2010, 524 с.
18. Алиева А.С. Ворсовые ковры Азербайджана XIX -нач. XX вв. Баку, 1987, 144 s.
19. Английские путешественники в Московском государстве в XVI в. Л.: ОГИЗ, 1937, 315.
20. Джидди Г.А. Средневековой город Шемаха (IX-XVII века). Историко-арxологическое исследование. Баку, Элм, 1981, 174 с.
21. Згленицкий В.Г. Кустарное производство золотых и серебряных изделий в Бакинском районе и Дагестане и предпологаемые меры для

упрдочное и развитияя оного //Труды первого съезда деятелей по кустарной промыщленности Кавказа. Тифлис, 1902, с. 58-72
22. История, география и этнография Дагестана XVIII-XIX вв. М., ИВЛ, 1958. 367 с.
23. Кавказский календарь на 1851 год. Издании отъ канцелярии Кавказского намиъстника, Тифлись, 1850, 1107 с.
24. Кавказский календарь на 1901 г., Издании отъ канцелярии Кавказского намиъстника, III отд., Tiflis. 1900 г., 510 с.
25. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях (ОРВЗК). в 4 т., т.III. СПб, тип. Деп. внеш. торг., 1836, ч. 3, 1836, 392 с.
26. Путешествие Иохаnа Шильтбергера по Европе, Азии и Африке, с 1394 года по 1427 год. Баку, Элм, 1984, 85 с.
27. Сумбатзаде А.С. Производства медной посуды ружей в местичке Лагич в XIX веке. ИАНА (серия общественных наук). № 5. Баку, 1960, с. 7-14.
28. Сумбатзаде А. С. Промышленность Азербайджана в XIX в. Баку, 1964, 501 с.

## Summary

## Craftsmanship in Shamakhi: tradition and modernity

**Naila Ciddi**

The favorable geographical position of Azerbaijan, its wealth of natural raw materials, as well as the fact that it is located on international land and water trade routes have historically opened wide opportunities for the development of handicrafts here. Shamakhi was one of the main craft centers that developed mainly in cities and partly in some villages and towns. Along with the city itself, some crafts were also developed in its villages such as Lahij (copper), Basgal, Nucu (silk) and Demirchi (blacksmithing, coppersmithing, jewelry) and weaving (silk making, carpet weaving) were involved in the ethnological research, which were the leading spheres of life of Shamakhi people in the Middle Ages and the 19th century. Based on sources and literature materials, raw material sources, conditions of development, place of handicraft products in domestic and international trade relations, as well as materials related to the current state of the mentioned crafts are found here.

**Key words:** Shamakhi, crafts, metalwork, silk making, carpet making

## Резюме

## Ремесленничество в Шамахе: традиции и современность

**Наиля Джидди**

Выгодное географическое расположение Азербайджана, его богатство природными ресурсами, а также факт исторического присутствия на пересечении международных сухопутных и торговых путей открыл множество возможностей для развития здесь ремесленничества. Одним из центров, в основном – городского, и частично, – развивающегося в деревнях и сёлах, ремесленничества являлся город Шамаха. Некоторые сферы ремесленничества пережили бурный подъем наряду с самим городом в его селах, таких как Лахидж (медное ремесло), Баскал, Нуджу (шелководство), и Демирчи (кузнечное дело).

В статье к этнографическому исследованию были привлечены такие ведущие направления ремесленничества в Средние века и в XIX веке, как металлообработка (кузнечное дело, медное ремесло, ювелирное дело) и ткачество (шелководство и ковроткачество). На основе научных и этнографических материалов и литературы, в статье была освещена проблема сырьевых источников для обозначенных отраслей ремесленничества, условия их развития, место и роль ремесленнической продукции во внутренних и внешних торговых связях, а также материалы по его современному состоянию.

**Ключевые слова:** Шамаха, ремесленничество, шелководство, ковроткачество, металлообработка.